*Azərbaycan, Bakı* *28.02.2017*

**İctimai Birliklərin "Mədən sənayesində şəffaflığın artırılması" (MSŞA) QHT Koalisiyası Şurasının**

**Bəyanatı**

MSŞA Koalisiyasının qurucularından biri, keçmiş Şura üzvü Sabit Bağırov Koalisiyada yaranmış böhrandan çıxış yolu kimi Təkliflər paketi ilə çıxış edib.

Sabit Bağırovun bu təşəbbüsünü təqdir edir və təşkkürümüzü bildiririk.

Hesab edirik ki, bu təkliflər Koalisiyada vəziyyəti normallaşdırmağa və gələcəkdə belə halların qarşısını almağa imkan yaradır.

Biz MSŞA Koalisiyası Şura üzvləri bu təkliflərin olduğu kimi, qeyd-şərtsiz qəbulunun tərəfdarıyıq. Öz növbəmizdə bütün Koalisiya üzvlərini bu bu təkliflərin olduğu kimi, qeyd-şərtsiz qəbulunu dəstəkləməyə çağırırıq.

**Koalisiya Şurası üzvləri:**

**Ruhəngiz Hüseynova**

**Sevil Allahverdiyeva**

**Elşən Nağıyev**

**Məmmədhəsən Həsənov**

**Əliməmməd Nuriyev**

*Azərbaycan, Bakı* *28.02.2017*

**MSŞA QHT Koalisiyası Şurasının növbəti toplantısı keçirilib**

Bu gün İctimai Birliklərin "Mədən sənayesində şəffaflığın artırılması" (MSŞA) QHT Koalisiyası Şurasının növbəti toplantısı keçirilib. Toplantıda Koalisiyada yaranmış vəziyyət, 2017-ci il 08-09 mart tarixində, Kolumbiyanın paytaxtı Boqota şəhərində keçiriləcək MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin növbəti toplantısından əvvəl Azərbaycanın statusu ətrafında yaranmış vəziyyət, MHŞT üzrə Çoxtərəfli Qrupa üzvlərin seçilməsi və cari məsələlər müzakirə edilib.

Koalisiya Şurası Koalisiyada yaranmış böhranın aradan qaldırılması üçün Koalisiya Şurasının keçmiş üzvü Sabit Bağırov tərəfindən irəli sürülən şərtlərin olduğu kimi, qeyd-şərtsiz qəbul edilməsinə tərəfdar çıxıb. Bununla bağlı müvafiq Bəyanat qəbul olunub. Bəyanat əlavə edilir.

Toplantıda MHŞT üzrə Beynəlxalq İdarə Heyətinə Azərbaycanın tamhüquqlu üzv statusunun bərpası üçün müraciət qəbul olunub. Müraciətdə Azərbaycan üçün təsdiq olunan İslahedici Tədbirlər Planı və Astana toplantısında irəli sürülən tədbirlərin icra olunmasından sonra vəziyyətin müsbət doğru dəyişdiyinin nəzərə alınaraq ölkəmizin MHŞT-də tamhüquqlu statusunun bərpasına çağırış edilib.

Toplantıda Koalisiyanın MHŞT üzrə Çoxtərəfli Qrupda təmsilçiliyi ətrafind ayarnmış vəziyyət müzakirə edilib və müvafiq qərarlar qəbul edilib.

Eyni zamanda Koalisiyanın Ümumi Yığıncağının çağrılması üçün məsləhətləşmələrə başlanılması ilə əlaqədar müzakirələr aparılıb.

Koalisiyaya üzvlüklə bağlı müraciətlərə növbəti iclasda baxılması qərara alınıb.

Koalisiya Şurası üzvü Əliməmməd Nuriyev tərəfindən Koalisiya üzvlərinin və vətəndaş cəmiyyətinin problemlərinin həlli ilə bağlı görülən işlər barədə məlumat verilib.